**Dünyada insanlığın ən uca zirvəsi Vətənə olan məhəbbətdir. Hər bir qəhrəmanlığın, fədakarlığın, hünərin və zəfərin anası məsləkdir, əqidədir. Məslək və əqidə isə, ilk növbədə, vətənlə bağlıdır.**

**Vətən təkcə yurd, yuva, el-oba deyil, vətən bizik, vətən sənsən, vətən mənəm, vətən bizim hər birimizdir. Vətənin dünəni də, bu günü də, sabahı da, gələcəyi də bizimdir. Bu yerdə ulu öndər Heydər Əliyevin gözəl kəlamları yada düşür: "Xalqımız böyük xalqdır. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər dərindən anlada bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik hissini yüksəldərik. Vətənpərvərlik sözünün kökündə də məhz vətən dayanır. Vətənini sevən əsl Azərbaycan gəncləri qəhrəmanlıqla şəhid olublar".**

**Vətəndaş sözü vətən sözündən yaranıb. İnsan dünyaya göz açdığı gündən etibarən vətəninin canlı vətəndaşına çevrilir. Dünyasını dəyişdikdən sonra isə vətəninin bir hissəsinə çevrilib vətəndaş olaraq yaddaşlara həkk olur. Vətənin hər bir qarışının vətəndaş üçün fərqi olmur. Hr zaman Vətəni dirçəldib, yeniləşdirən də onun vətəndaşları olur.**



# Unudulmaz qəhrəmanlıq dastanı

Odlar Yurdu vətənim qədim tarixə, tükənməyən sərvətlərə malikdir. Ulu Tanrıya çox şükürlər olsun ki, bu sərvətləri bizə verərkən onların keşiyində layiqincə dura biləcək Babək, Cavanşir, Koroğlu, Uzun Həsən, Şah İsmayıl Xətai, Mehdi Hüseynzadə, Şövqiyar, Mübariz və s. kimi mərd oğullar nəsib etmişdir. Ulu babalarımızın bugünkü nəsillərə müqəddəs əmanəti sayılan Odlar Yurdu Azərbaycanımızın torpağının hər bir qarışı bizim üçün əzizdir. Çünki bu torpaq bədnam qonşularımıza qarşı ölüm-dirim çarpışmalarında şəhid olmuş ata-babalarımızın qanından yoğrulub.

1988-ci ildə Azərbaycana qarşı böyük bir facìə ilə nəticələnən hərbi təcavüz edilib. Bu hərbi təcavüz sonralar müharibəyə çevrilib. 1988-ci ildə mənfur ermənilərin vətənimizə təcavüzü zamanı on minlərlə vətəndaşımız Azərbaycanın dövlətçiliyinin, müstəqilliyimizin və ərazi bütövlüyümüzün təcavüzdən qorunması üçün mübarizəyə qalxdı. Azərbaycanın ərazi bütövlüyü uğrunda erməni daşnaklarına qarşı gedən döyüşlərdə canlarını qurban verən şəhidlər şərəfli və müqəddəs bir yolun yolçuları oldular. Hər bir vətəndaş dərk etdi ki, dövlətini, torpağını qorumaq onun müqəddəs borcudur. Dədə Qorqudun gözəl bir kəlamı var: "Torpağı qorumasan, əkib-becərməyə dəyməz, əkib-becərməsən, qorumağa dəyməz".

Azərbaycan tarix boyu hər zəfərini canı-qanı bahasına qazanan ulu bir diyardır. Təbiidir ki, müharibə qansız, itkisiz ötüşmür. Çox təəssüf ki, Azərbaycanın uğurları da, məğlubiyyətləri də olub. Bu müharibədə, döyüşlərdə vətənimizə, ölkəmizə, dövlətimizə sədaqət göstərən xalqımızın igid oğlanları misilsiz rəşadət göstərərək öz əməlləri ilə Milli Qəhrəmanlıq zirvəsinə çatıblar.

Zaman-zaman çirkin xislətli qonşularımızın xalqımıza, millətimizə namərdliklə yaşatdıqları, ağrının, acının min mislini onlara yaşatdılar. Çünki vəsiyyət olunan Vətəni qorumaq vətənpərvər oğulların ən birinci vəzifəsidir. Qəhrəmanlar da canlarından keçərək, Vətəni qorudular.

Vətən o vaxt zirvələrə ucalır ki, onun uğrunda igidlər canından-qanından keçib, vətən bayrağını zirvələrə ucaltmaq üçün heç nəyi əsirgəmirlər. Yüksəlişə can atmaq isə insanın təbiətindədir. Bu yüksəlişin ən uca zirvəsi isə şəhidlikdir. Vətən yolunda canını fəda edən oğullarımız əlində ölmür, ölümü ilə ölümsüzlük qazanır. 1990-cı ildə də, igidlərimiz doğma torpaqlarımızın azadlığı uğrunda şəhadətə ucalaraq adlarını hərb tariximizin qızıl səhifələrinə həkk etdilər.

Birinci Qarabağ müharibəsində Azərbaycanın bütövlüyü naminə şücaət göstərərək qanı ilə tarix yazan igidlərimizdən biri də Məmmədov Seymur Qəhrəman oğludur. Bu yazıda da Vətən sevdalı Seymurun qürur, fəxr, sevinc və kədər dolu həyat hekayəsinə işıq saldıq.

Vətənimizin cəsur oğlu Seymur Məmmədov 1971- ci il sentyabr 18-də Füzuli şəhərində dünyaya göz açıb. Seymur doğulduğu andan tez böyümək, ağla-kamala dolmaq istəyib, öz bacarıq və qabiliyyətini, bilik və hünərini göstərməyə səy edib.

O, 1978-1988-ci illərdə Füzuli şəhərindəki 2 saylı orta məktəbdə təhsil alıb. Elə həmin il Azərbaycan Politexnik İnstitutunun (indiki Texniki Universitet - red.) elektrotexnika fakültəsinə daxil olub. O, təhsil almaqla yanaşı, Füzuli şəhər rabitə şöbəsində işləyib. Ana təbiət onu başqa xislətdə yaratmışdır. Seymur, həyatın yüngül nəşələrindən, ərkəsöyünlükdən çox uzaq bir oğul olub. Qarabağ üzərinə qara buludlar axanda rayonda yaranan özünümüdafiə dəstəsinə yazılaraq, ov tüfəngi ilə keşikdə dayanıb.

Odlar Yurdunun vətənpərvər oğlu Seymur hərbi xidmətə 1991-ci ildə Vladimir vilayətinin Kovrov şəhərində başlayıb. Bu şəhərdə 6 aylıq artilleriya kursu keçdikdən sonra nümunəvi əsgər kimi Almaniya Federativ Respublikasına göndərilib. O, bir müddətdən sonra isə xidmətini Ukranya Respublikasının Çerniqov şəhərində davam etdirib. Vətən fədaisi Seymur, hərbi xidmətdən qayıtdıqdan sonra könüllü olaraq N saylı özünümüdafiə batalyonuna yazılıb.

Həmin dövrdə bir neçə yaşayış məntəqəmiz erməni işğalına məruz qalmışdı. Vətənin cəsur və fədakar övladı Seymur 1992-ci ilin ilk aylarından etibarən Qacar, Divanallar, Govşad, Yuxarı Veysəlli, Dilağarda kəndlərinin müdafiəsi naminə gedən döyüşlərdə yaxından iştirak edərək düşmənin iki zirehli maşınını, iki atəş nöqtəsini sıradan çıxardıb. Xocalıdan Qırmızı Bazara aparılan 14 azərbaycanlı əsirin azad edilməsində, həmçinin Govşadlı yaxınlığında mühasirəyə düşmüş 11 nəfər döyüş yoldaşının xilas edilməsində müstəsna qəhrəmanlıq nümayiş etdirib. Vətənin mərd, fədakar, qəhrəman oğlu gənc olmasına baxmayaraq, hər zaman ən çətin əməliyyatların mərkəzində olub, kəşfiyyatçı, qumbaraatan və sıravi əsgər kimi müxtəlif döyüş tapşırıqlarını məharətlə yerinə yetirib. Erməni quldurlarının onun başına 5 min dollar mükafat təyin etməsi Seymurun onlar üçün nə dərəcədə təhlükəli bir qəhrəman olduğunun sübutu idi.

Cəsur döyüşçü Seymurun ən parlaq və son döyüşü 1992-ci il aprelin 1-də Xocavəndin Məlikcan kəndi uğrunda olub. Strateji baxımdan düzgün mövqe seçən Seymur cəmi 2 saat ərzində düşmənin bir tankını, bir PDM-ni (Piyadanın döyüş maşını), 50-dən çox canlı qüvvəsini və hər birində 10 nəfərə yaxın silahlı olan 15 postunu darmadağın edib. Təəssüf ki, döyüşün ən qızğın çağında, günorta saat 3 radələrində düşmən snayperinin açdığı atəş bu gənc qəhrəmanın ömrünə son qoyub. Seymur 20 yaşında adını tarixin qəhrəmanlıq salnaməsinə əbədi həkk edərək şəhadət zirvəsinə ucalıb. O, 20 yaşın çərçivəsinə sığmayan igidliklər göstərib.

Tarixin yaddaşında qalan belə insanlar qısa ömür yaşasalar da, doğulduğu torpağı, el-obanı cəmiyyətə tanıdıblar.

Azərbaycan Respublikası Prezidentinin 11 avqust 1992-ci il tarixli 131 saylı fərmanı ilə xidməti borcunu yerinə yetirərkən göstərdiyi igidlik və döyüş şücaətinə görə Məmmədov Seymur Qəhrəman oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. O, Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilib.

Hal-hazırda Seymur Qəhrəman oğlu Məmmədovun təhsil aldığı Füzuli şəhər 2 saylı orta məktəb onun adını daşıyır. Ən maraqlı xatirələr, yaddaqalan günlər məktəbdə ucaldılan həmin büstün önündə xatırlanır. 2019-cu ildə Çingiz Həsənovun rejissorluğu ilə "Salnaməfilm" studiyasında Milli Qəhrəman haqqında "Qartal yuvası" sənədli filmi çəkilib.

Onun ən böyük arzusu düşməni axıra qədər məhv etmək idi. Seymur bacardığını etdi. İmkanlarını cəmləşdirib doğma yurdunu, elini, obasını qorumağa çalışdı. İllərlə həsrətində yaşadığımız, Seymur Məmmədovun həlak olduğu torpaq öz sahibinə qovuşub. Vaxtilə baş vermiş faciələrdə tökülən qanlar əbəs yerə axmayıb. Azərbaycan artıq bütövdür.

Bu gün Seymur Azərbaycanın ən gənc Milli Qəhrəmanlarından biri kimi fəxrlə anılır. Müstəqil dövlətimizin qorunmasında və ərazi bütövlüyümüzün bərpasında canlarından keçən Milli Qəhrəmanlarımızın rolu əvəzsizdir. Onların həyat yolu hər bir Azərbaycn vətəndaşı üçün örnəkdir. Seymur və onun kimi igidlərin göstərdiyi rəşadət bizə Vətəni sevməyi və onun uğrunda mübarizə aparmağı öyrədən böyük bir məktəbdir. Onların adları Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunub.

Bizim igid oğullarımız düşünmədən ömürlərini Vətən yolunda pay veriblər. Şəhidlik məqamına ucalan belə oğulların adı hər birimizin dilinin əzbərinə çevrilib. Bu gün üzərində gəzdiyimiz Vətən torpağının o igidlərin qanı ilə suvarıldığını hər bir Azərbaycan vətəndaşı dərk etməlidir. Şəhidlərimiz gələcək nəsillər üçün misilsiz qəhrəmanlıq örnəyidir. Şəhadətə yüksələn oğullarımız Allah qatında seçilmiş elə insanlardır ki, onlar ölmür, ruhən Yaradana - əbədiyyətə qovuşurlar. Buna ölümlərin ən şərəflisi deyirlər. Bu, müqəddəs şəhidlik zirvəsidir ki, hər kəsə qismət olmaz.

İgidliyin, qorxmazlığın, cəsarətin, şücaətin timsalı olan şəhidlərimiz Vətəni sevdilər və yurddaşları tərəfindən sevilərək əbədiyyətə qovuşdular. Yurdumuzun arxa-dayağı olan, "Vətən sağ olsun" deyərək canından keçən Milli Ordumuzun qəhrəman oğullarının hər birinin xatirəsi bizə əzizdir. Onlar daima ehtiram hissi ilə yad olunacaq, nəsildən-nəsilə nümunə göstəriləcəklər.

Odlar Yurdu Azərbaycanın qəhrəman oğulları daim qəlbimizdə yaşayacaqdır.

**Allah bütün şəhidlərimizə rəhmət eləsin! Məkanları cənnət olsun!**

*Gülnar BƏŞİROVA*
*AMEA-nın dissertantı,*
*Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-elmi işçisi*